***Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət, – biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini nəzərdə tuturuq, – onlar, nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır.***

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

**Münxen, 16 fevral 2020-ci il**



# Münxen Təhlükəsizlik Konfransı Ermənistan rəhbərliyi üçün heç zaman unudulmayacaq bir dərs oldu

***2020-ci il də Ermənistan rəhbərliyi üçün ifşaedici məqamlar və rüsvayçılıqla başlandı. Üstəlik, bu rüsvayçılığın auditoriyası daha geniş oldu. Çünki Nikol Paşinyan ötən il Soçidə və Aşqabadda – yəni postsovet məkanında özünü gülünc vəziyyətə salmışdısa, bu dəfə o, dünya miqyaslı beynəlxalq forumun panel iclasında savadsızlığı, məntiqsizliyi, siyasi naşılığı və heç olmazsa, təmsil etdiyi xalqın və rəhbərlik etməyə çalışdığı dövlətin tarixini bilməməsi ilə acınacaqlı duruma düşdü.***

Söhbət Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan panel müzakirələrindən gedir. Xatırladaq ki, müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak edirdilər.

Moderator Selest Volenderin ilk sözü ərazisi işğala məruz qalmış ölkənin dövlət başçısına – Azərbaycan Prezidenti İlham Əliyevə verməsi bəzi avropalıların ikili standartlardan əl çəkə bilməməsinə baxmayaraq, ədalətli mövqe nümayiş etdirilməsi idi. Amma xanım Volenderin bu jesti Ermənistan tərəfinə çox baha başa gəldi. Çünki Prezident İlham Əliyev Nikol Paşinyanı və Ermənistan dövlətinin işğalçılıq siyasətini ifşa etməyə başlamazdan əvvəl, düşmən ölkə rəhbərlərinin müzakirələrdən qorxaraq, görüşdən qaçmaq ənənəsini yada saldı.

Dövlət başçımız elə çıxışının əvvəlindəcə dedi: “İlk növbədə, cənab İşingerə Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger nəzərdə tutulur- red.) bu tədbiri təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istərdim. Mən elə indicə cənab İşingerə dedim ki, bir neçə il əvvəl Davosda Ermənistan və Azərbaycan rəhbərliyi tərəfindən mesajlar ötürülməsi üçün imkan var idi. Cənab Paşinyanın sələfi də iştirak etməli idi, lakin son anda o, iştirakını təxirə saldı. Beləliklə, mən şadam ki, nəhayət, həmin an gəldi və biz mesajları çatdıra biləcəyik”. Diplomatiyanın və siyasətin ən ali səviyyəli mərtəbəsinə yüksəlmiş olan Azərbaycan Prezidenti İlham Əliyev Serj Sarkisyanın Davosdakı müzakirəni təxirə saldığını desə də, onun Parisdəki müzakirədən xəstələnmək bəhanəsi ilə yarımçıq qaçdığını yada salmadı.

Azərbaycan Prezidenti təkcə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin deyil, eləcə də bütövlükdə Qafqazın tarixi barədə əhatəli məlumata malik olduğuna, həmin məlumatları sübut edən mənbələri göstərdiyinə görə tədbir iştirakçıları və milyonlarla televiziya tamaşaçısı tərəfindən alqışlarla qarşılandı. Hətta ermənilər açıq şəkildə bildirdilər ki, İlham Əliyev növbəti dəfə Paşinyanı “gözüqıpıq etdi”.

Azərbaycan Prezidenti, Nikol Paşinyan başda olmaqla, bütün ermənilərə tarixi faktları növbəti dəfə xatırlatdı: “Dağlıq Qarabağ bizim ölkənin ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə, -- sazişin mətni internetdədir. -- Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr -- Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir... Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub”.

Azərbaycan rəhbərinin məntiq və arqumentləri qarşısında aciz qalan Nikol Paşinyan yenə də çəkici gah nala, gah da mıxa vurmalı oldu: “Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın (bu səhv dövlət başçısı üçün rüsvayçılıqdır -İ.M.) tərkib hissəsi olmasına qərar verdi. Bu, tamamilə qanuni qərar idi və bundan sonra İosif Stalinin şəxsi təşəbbüsü əsasında bu qərar Moskvada dəyişdirildi. Bu, bir növ Stalin, Lenin və Atatürkün gizli sövdələşməsi idi”.

Məhz savadsızlığın və anadangəlmə təfəkkürsüzlüyün nəticəsidir ki, Nikol Paşinyan Dağlıq Qarabağın “Ermənistandan alınıb Azərbaycana verildiyini” israr etməsiylə kifayətlənməyərək, özünü Lenin, Stalin və Atatürkdən üstün tutmağa cəhd etdi. Bu ayıbı ilə də onun çıxışı Rusiya, Türkiyə və Ermənistanda ikrahla, Azərbaycanda isə gülüşlə qarşılandı.

Həmin “qarşılanmaya” qədər isə Prezident İlham Əliyev ona bəzi məqamları başa salmışdı: “Cənab baş nazir indicə qeyd etdi ki, Dağlıq Qarabağı Azərbaycana vermək qərarını Stalin verib. Bu səhvdir. Bir daha Qafqaz Bürosunun qərarına baxın, 1921-ci il iyul, orada deyilir ki, Dağlıq Qarabağı Azərbaycanda saxlamaq, Azərbaycana vermək yox. Əgər o, Stalini belə çox bəyənmirsə, qəribədir ki, niyə Şaumyanı belə çox bəyənir? Çünki Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi. Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb. Çünki paytaxtın qədim adı Xankəndidir -- Xanın kəndi”.

Amma Nikol Paşinyan öz savadsızlığı və məntiqsizliyi ilə adı çəkilən həmin üç tarixi şəxsə deyil, həm də ən qatı daşnakçılardan və ən dəhşətli ermənilərdən olan Anastas Mikoyana da “meydan oxuyurdu”.

Xatırladaq ki, “Moderator.az” saytı ötən il sentyabrın 5-də ermənişünas alim, Türkiyənin Ərciyəz Universitetinin professoru Qafar Çaxmaqlının erməni kommunist, hiyləgər siyasətçi Anastas Mikoyan haqqında Türkiyə türkcəsində qələmə aldığı "Anastas Mikoyan: Bolşevik ermənінin etirafları" kitabının Azərbaycan dilinə tərcüməsinin növbəti hissəsini təqdim etmişdi. Orada yazılır ki, 1920-ci ildə Qarabağ və Zəngəzur bolşeviklərin əlinə keçəndən sonra Mikoyan Rusiya Xarici İşlər naziri Çiçerinə belə bir məktub göndərmişdi: "Ermənilər Azərbaycanla gerçək müharibə içindədirlər. Sovet Azərbaycanın tərkibində olan, lakin mübahisəli hala gətirilməsi istənilən Zəngəzur və Qarabağa gəlincə, qəti olaraq bildiririk ki, bu ərazilərin müddətsiz olaraq və bundan sonra da Azərbaycanın tərkibində yer alması lazımdır".

Prezident İlham Əliyev əlavə edir: “Beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir”.

Həmin məsələyə münasibət bildirən Paşinyan isə artıq azərbaycanlılardan çox ermənilərin əsəbi ilə oynayır: “BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə, bu sənədlərin ümumi mənası nə olub? Bu sənədlərin ümumi mənası hər cür zorakılığın qarşısını almaq və hərbi əməliyyatların dayandırılması məqsədilə qeyd-şərtsiz və dərhal atəşkəs elan edilməsindən ibarət olub”. Yəni işğalçı ölkənin gerizəkalı “liderindən” fərqli olaraq, bütün dünya erməniliyi yaxşı bilir ki, zorakılıq törədən tərəf məhz Ermənistandır və ona görə də BMT TŞ tələb edirdi ki, Azərbaycan ərazilərinin işğalı dayandırılsın.

Başqa bir fakt. Nikol Paşinyan Ermənistanın və ya Azərbaycanın 7-8-ci sinif şagirdi səviyyəsində coğrafiya biliyinə malik olsaydı, bütün dünyanın gözü qarşısında “Dağlıq Qarabağda Şaumyan adlı rayon var idi” ifadəsini işlətməkdən çəkinərdi.

Ermənistan rəhbəri Münxen Təhlükəsizlik Konfransına qarşı da riyakarlıq etməkdən, yalan danışmaqdan çəkinməyərək dedi ki, mən münaqişənin həllinin Azərbaycan xalqı üçün də səmərəli olmasını arzulayıram, amma Azərbaycan Prezidenti Dağlıq Qarabağın erməni əhalisi ilə danışmaq istəmir. Fikrimizcə, Paşinyan Azərbaycan Prezidentindən eşidəcəyi cavabı az da olsa, təxmin etsəydi, məsələni bu istiqamətə yönəltməzdi.

Prezident İlham Əliyev təxminən otuz il eşitdiyimiz həmin riyakarlığa çox konkret cavab verdi: “ Biz təcavüzkarla danışıqlar aparırıq. Biz Dağlıq Qarabağla danışmağa o vaxt hazır olarıq ki, Ermənistan həmin qeyri-qanuni rejimi maliyyələşdirməsini dayandırsın, bütün hərbi qoşunları Dağlıq Qarabağdan çıxarsın və bizim əraziləri tamamilə tərk etsin. Sonra isə bizim həmin insanlarla danışıq aparmağa arqumentimiz olacaq. Lakin nə qədər ki, onlar oradadır, bu, baş verməyəcək”.

Rusiyalı jurnalistin status məsələsinin sonraya saxlanması və Dağlıq Qarabağın ətrafında olan rayonların boşaldılması, dəhlizin yaradılması və digər addımlar barədə sualını cavablandıran Azərbaycan Prezidentinin mövqeyi yenə də aydın və konkret idi: "Bu təklif Azərbaycan tərəfindən ciddi şəkildə nəzərdən keçirilmişdir və bütövlükdə, biz buna razılıq vermişdik. Bu, atıla biləcək ən məntiqli addımdır. Aydındır ki, biz bu münaqişəni mərhələlərlə həll etməliyik. Münaqişəni tam şəkildə bir gündə həll edə bilmərik. O, mərhələli olmalıdır və birinci mərhələdə jurnalistin söylədiyi və Rusiyanın təklif etdiyi kimi, işğal olunmuş ərazilərin bir qisminin azad edilməsi baş verməlidir, Azərbaycan məcburi köçkünləri həmin ərazilərə qayıtmalıdır, həmin ərazilərdə yenidən köçürülmə olmalıdır və eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi getməlidir”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***